**Qərbi Kaspi Universitetinin Elmi Şurasının**
**29 dekabr 2023-cü il tarixli 4 №-li**
**protokoluna əsasən rektorun əmri ilə**
**təsdiq edilmişdir**

# ELMİ-TƏDQİQAT TƏCRÜBƏNİN TƏŞKİLİNƏ DAİR

# QAYDALAR

## 1.Ümumi müddəalar

1.1.Qaydaların məqsədi ali təhsilin magistratura pilləsi üçün "Elmi-tədqiqat təcrübəsi"nin məqsəd və vəzifələrini, təşkili prosedurlarını, eləcə də magistrantların bu təcrübə üzrə bilik və bacarıqlarının qiymətləndirilməsi qaydalarını müəyyən etməkdən ibarətdir.

1.2. Təcrübə təsdiq edilmiş akademik təqvim üzrə həyata keçirilir.

## II. Elmi-tədqiqat təcrübəsinin məqsəd və vəzifələri

2.1. Emi tədqiqat təcrübəsi (bundan sonra - ETT) magistrantların tədris prosesi dövründə əldə etdikləri nəzəri-metodoloji biliklərlə həmin bilikərin praktikada tətbiqi bacarıqları arasında əlaqələrin təmin edilməsinə istiqamətlənir.

2.2. Magistrantların elmi tədqiqatların aparılması alətləri və metodlarından real tədqiqatlarda istifadə bacarıqlarının və bu sahədə peşəkar vərdişlərin inkişaf etdirilməsi ETT-nin əsas məqsədidir.

2.3. ETT tədqiqatın nəzəri və informasiya bazasının formalaşdırılması üçün məlumatların toplanması, təhlili və ümumiləşdirilməsi, eləcə də magistr dissertasiyasının hazırlanması üçün orijinal elmi təkliflərin hazırlanması, müstəqil olaraq tədqiqat aparmaq qabiliyyətinin inkişaf etdirilməsi, tədqiqat prosesində təcrübəli tədqiqatçılarla birgə iştirak istiqamətində aparılır.

2.4. ETT-in vəzifələri:

- tədris prosesində qazanılmış bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi;
- ixtisas üzrə tədqiqatların aparılması üçün münasib olan müasir metod və elmi yanaşmaları tətbiq etmək bacarıqlarının artırılması;
- magistrantların müstəqil tədqiqat aparmaq qabiliyyətlərinin inkişaf etdirilməsi;
- tədqiqatın nəticələrini məqalə, məruzə və digər hesabat formaları şəklində tərtib etmək bacarıqlarına yiyələnməsi;

2.5. ETT nəticəsində magistrant bilməlidir:

- mövzu üzrə nəzəri və informasiya bazasının formalaşdırılması üsullarını;
- elmi tədqiqatın aparılması metodlarını;
- məqalə yazarkən fikirlərin akademik izahı, elmi mühakimələrin aparılması və arqumentlərin gətirilməsi üsullarını;

Bacarmalıdır:

- tədqiqat prosesinin təşkili metodlarından istifadə etməyi;
- tədqiqat mövzusunun aktuallığını əsaslandırmağı, tədqiqatın məqsəd və vəzifələrini müəyyən etməyi;
- məlumatların emalı metodlarını tətbiq etməyi və nəticələrin interpretasiyasını;

Magistrant ETT nəticəsində aşağıdakı kompetensiyalara yiyələnməlidir:

- tədqiqatın məqsəd və vəzifələrinə uyğun gələn məlumat bazasının formalaşdırmağı;
- tədqiqata dair məlumatların toplanması metodlarının tətbiqi bacarığı;

- toplanmış məlumatların emalı;
- kəmiyyət və keyfiyyət metodlarından istifadə;
- aparılmış tədqiqat üzrə hesabat yazmağı.
-

## III. Elmi-tədqiqat təcrübənin təşkili

3.1. Magistranta ETT üzrə akademik heyət arasından rəhbər təyin edilir. QKU-nun digər struktur vahidlərində çalışan akademik heyətin üzvləri də ETT üzrə rəhbərliyə cəlb oluna bilər.

Təcrübə rəhbərinin ETT ilə bağlı vəzifələrinə aşağıdakılar aid edilir:

- magistranta ETT zamanı yerinə yetirəcəyi fərdi tapşırığın müəyyən edilməsində tövsiyələr verir;
- magistr dissertasiyası üçün materialların toplanması üzrə tapşırıqlar verir;
- mövzu üzrə xüsusi ədəbiyyata və tədqiqat metodlarına dair məsləhətlər verir;
- magistranta fərdi tapşırığın yerinə yetirilməsində metodiki tövsiyələr verir;
- magistrantın ETT üzrə nəticələrini qiymətləndirir.

Magistrantın təcrübə ərzində vəzifələrinə aşağıdakılar aid edilir:

- ETT üzrə fərdi tapşırığı vaxtında və keyfiyyətlə icra etmək;
- seçilmiş mövzu üzrə ədəbiyyat siyahısını tərtib etmək və onları öyrənmək;
- tədqiqatın informasiya bazasını formalaşdırılması üçün zəruri işləri görmək;
- informasiyaların toplanması və emalı metodlarını seçmək;
- ETT üzrə hesabatı hazırlamaq.

.

## IV. Elmi-tədqiqat təcrübəsi zamanı magistrantlara verilən tapşırıqların yerinə yetirilməsinə dair metodiki tövsiyələr

4.1. ETT üzrə tapşırıq hər bir magistrant üçün fərdi qaydada müəyyən edilir və magistrantın təcrübə gündəliyində əks etdirilir.

4.2. Magistrantın fərdi iş planı və bu plan üzrə işlərin icrası barədə məlumatlar gündəlikdə əks etdirlilr. Təcrübə rəhbəri təcrübə müddəti ərzində vaxtaşırı magistrantın gündəliyində fərdi tapşırıqların icrası barədə qeydlər aparır. Təcrübə bitdikdən sonra təcrübə rəhbəri təcrübənin bitməsi tarixi barədə günədlikdə qeyd aparır və imzalayır. Təcrübənin gündəliyi səlis və aydın xətlə, müvafiq qaydalara riayət olunmaqla doldurulmalıdır.

## V. Yazı qaydaları:

5.1. Təcrübə hesabatı Microsoft Word formatında təqdim edilir;

5.2. Magistrantın pedaqoji təcrübə üzrə hesabatı 8–15 səhifə həcmində olmalıdır.

5.3. Hesabatın mətni A4 vərəqdə (sağ 1 sm, sol 3 sm, yuxarı 2 sm, aşağı 2 sm), 14 ölçülü Times New Roman şrifti ilə, sətirarası məsafə 1,5 olmaqla tərtib edilir. Sonunda magistrant Hesabatı müdafiə etməlidir.

5.4. Hesabatın strukturu aşağıdakı əsas bölmələri özündə əks etdirməlidir:

1. Titul vərəqi ( Əlavə 1)
2. Giriş

Burada aşağıdakılar göstərilməlidir:

1. Təcrübənin məqsədi, vəzifələri, keçirildiyi yer və zaman, Mühazirə mövzusunun adı.
2. Yerinə yetirilmiş tapşırıqların siyahısı.
3. Əsas hissə
4. Nəticə

Bu bölməyə daxildir:

4.1. Qazanılmış bacarıq və vərdişlərin təsviri.

4.2. Görülən iş üzrə fərdi nəticə və qənaətlər.
5. Təkliflər
6. İstinad edilən mənbələrin siyahısı
7. Əlavələr

## VI. Elmi-tədqiqat təcrübəsi üzrə bilik və bacarıqların qiymətləndirilməsi

6.1 Təcrübə bitdikdən sonra fərdi tapşırıqda göstərilən bütün işləri vaxtında yerinə yetirmiş magistrantlar təcrübənin gündəliyini və təcrübə üzrə məqaləni fərdi tapşırıqda qeyd olunan tarixədək təcrübə rəhbərinə təqdim edir.

6.2. Magistrant ETT üzrə təqdim etdiyi məqalənin nəticələri əsasında magistrantın təcrübə üzrə bilik və bacarıqları təcrübə rəhbəri tərəfindən bu Qaydaların 1 saylı əlavəsində müəyyən edilmiş meyarlar üzrə blankda qiymətləndirimə aparılır.

**Hər meyar üzrə qiymərləndirilmə balı aşağıdakılardır:**

| № | **Qiymətləndirmə Meyarları** | **Bal** |
|---|---|---|
| 1. | ETT-nin təşkil olunan təlimlərdə iştiraka görə | 15 bal |
| 2. | Aparılan tədqiqatın dissertasiya mövzusuna uyğunluğu | 20 bal |
| 3. | Akademik yazı qabiliyyəti | 20 bal |
| 4. | Kəmiyyət və keyfiyyət metodlarından istifadə qabiliyyəti | 15 bal |
| 5. | Yeni bilikləri mənimsəmə qabiliyyəti | 15 bal |
| 6. | Magistrantın müstəqil məlumat toplama bacarığı | 15 bal |
| | **Cəmi:** | 100 bal |

5.1. Elmi-tədqiqat təcrübəsi üzrə ümumi saatların 25%-dən çoxunda iştirak etməyən və qeyri-müvəffəq qiymət alan magistrantların akademik borcu yaranır.

5.2. Qiymətləndirmənin yekun nəticələri aşağıdakı şkala üzrə müəyyən edilir:

91-100 bal - əla
81-90 bal - çox yaxşı
71-80 bal - yaxşı
61-70 bal - kafi
51-60 bal - qənaətbəxş
51 baldan az - qeyri-kafi

**Əlavə 1**

**Elmi-tədqiqat təcrübəsi üzrə qiymətləndirmə**

**QKU-da "____________________________________" ixtisası üzrə təhsil alan**

**______ qrup magistrantı _________________________________(S.A.A.)**

**"__________________________________________________" mövzusunda**

**dissertasiyası üzrə**

**Elmi-tədqiqat təcrübəsində fəaliyyətinin qiymətləndirilməsi**

**R Ə Y**

1. Dəvamiyyət - ___ bal
2. Aparılan tədqiqatın dissertasiya mövzusuna uyğunluğu - ___ bal
3. Akademik yazı qabiliyyəti - ___ bal
4. Kəmiyyət və keyfiyyət metodlarından istifadə qabiliyyəti - ___ bal
5. Yeni bilikləri mənimsəmə qabiliyyəti - ___ bal
6. Magistrantın müstəqil məlumat toplama bacarığı - ___ bal

**YEKUN BAL ___ bal**

**Təcrübə rəhbəri_______________________ (elmi dərəcə, emi ad, S.A.A.)**

**Tarix: __ __________ 20__-ci il.**

## Qərbi Kaspi Universiteti
## Ali təhsilin magistratura pilləsində Elmi-pedaqoji təcrübənin təşkili

Qiymətləndirmənin yekun nəticələri aşağıdakı şkala üzrə müəyyən edilir:

| | | |
|---|---|---|
| 91-100 bal | - | əla |
| 81-90 bal | - | çox yaxşı |
| 71-80 bal | - | yaxşı |
| 61-70 bal | - | kafi |
| 51-60 bal | - | qənaətbəxş |
| 51 baldan az | - | qeyri-kafi |

| | |
|---|---|
| **Tələbənin ad, soyadı və ata adı** | |
| **Qrup** | |
| **Müəllimin ad, soyadı və ata adı** | |
| **Tədris olunan mövzu adı** | |

**Təcrübə üzrə qiymətləndirmə 100 ballıq sistemlə aşağıdakı meyarlar üzrə aparılır:**

| № | Qiymətləndirmə Meyarları | Bal | Qiymətləndirən şəxs | Qiymətləndirmə | İmza |
|---|---|---|---|---|---|
| 1. | Davamiyyət | 30 | Təcrübə rəhbəri | | |
| 2. | Mühazirə mətninin hazırlanması və təqdimatı | 30 | Elmi rəhbər | | |
| 3. | İnteraktiv tədris üsullarından istifadə bacarığı | 20 | Təcrübə rəhbəri | | |
| 4. | Konfrans və seminarlarda iştirak | 20 | Təcrübə rəhbəri | | |
| | **Cəmi:** | 100 | | | |

*Əlavə 2*

**QƏRBİ KASPİ UNIVERSITETİ**

**Fakultet:** ___________________________________________

**Kafedra:** ___________________________________________

**ELMİ TƏCRÜBƏ HESABATI**

«» ___________ **20__ tarixindən** «» ____________ 20__ tarixinədək

Tələbənin adı, soyadı, atasının adı: __________________________________

_________________________________________________________________

Ixtisasın adı və şrifti: _____________________________________________

Qrup: №____________

Dissertasiya işin adı**:**______________________________________________

_________________________________________________________________

Universitetin təcrübə rəhbəri
(*Elmi dərəcə, vəzifə*)

Təşkilatın təcrübə rəhbəri
(*Elmi dərəcə, vəzifə*)

**Bakı- 20__**